AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

“Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı”nın və “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 87 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı”nın və “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 87 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 5, maddə 454 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı” üzrə:

1.1. “KONSULTASİYALAR*” bölməsi üzrə:

1.1.1. birinci sətir aşağıdakı redaksiyada verilsin:

Endokrinoloq	3 ayda 1 dəfə	3 ayda 1 dəfə	ayda 1 dəfə

1.1.2. ikinci sətrin “İllik tibbi yardım” sütununda “Okulist” sözü “Oftalmoloq” sözü ilə əvəz edilsin;

1.1.3. aşağıdakı məzmunda beşinci sətir əlavə edilsin:

Ümumi cərrah	ildə 1 dəfə	ildə 1 dəfə	ildə 1 dəfə

1.2. “İNSULİN VƏ DİGƏR ŞƏKƏRSALICI DƏRMAN PREPARATLARI, İNYEKSİYA VASİTƏLƏRİ, ÖZÜNƏZARƏT VASİTƏLƏRİ” bölməsi aşağıdakı redaksiyada verilsin:

İNSULİN VƏ DİGƏR ŞƏKƏRSALICI DƏRMAN PREPARATLARI, İNYEKSİYA VASİTƏLƏRİ			
İnsulin (bazal - 40% və ya 50%; Bolyus - 50% və ya 60% ehtiyaca uyğun)	Həkim təyinatına və klinik göstərişlərə əsasən gündəlik maksimal 80 vahidədək (pubertat dövründə olan uşaqlar üçün tələbata uyğun maksimal 100 vahidədək) ****	Tələb olunmur	Kombinə olunmuş terapiyada gündəlik 40 vahid insulin, həkim təyinatına və klinik göstərişlərə əsasən gündəlik maksimal 80 vahidədək
Şəkərsalıcı həblər: Sulfanilsidik cövhəri törəmələri Biquanidlər SGLT 2 inhibitorları Kombinə edilmiş preparatlar	Tələb olunmur	Gündə 3 həbədək	Gündə 2 həb hesabı ilə ildə 730 həb
GLP 1 reseptor aqonistləri	Tələb olunmur	Endokrin sistem xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası üzrə ixtisaslaşmış dövlət tibb müəssisələrinin rəyi əsasında həkim təyinatına və klinik göstərişlərə əsasən	Həkim təyinatına və klinik göstərişlərə əsasən

Birdəfəlik insulin şprisi: (insan insulini alanlar üçün) və insulin qələmləri üçün ucluq	Birdəfəlik insulin şprisi - illik 144 ədəd İnsulin qələmləri üçün ucluq - böyüklər üçün illik 365, 0 -18 uşaqlar üçün illik 730 ədəd	Tələb olunmur	Birdəfəlik insulin şprisi - illik 144 ədəd İnsulin qələmləri üçün ucluq - illik 365 ədəd

1.3. “ÖZÜNƏNƏZARƏT VASİTƏLƏRİ” bölməsi aşağıdakı redaksiyada verilsin:

ÖZÜNƏNƏZARƏT VASİTƏLƏRİ			
Qlükometrlər	3 ildə 1 dəfə*****	3 ildə 1 dəfə*****	3 ildə 1 dəfə*****
Qanda şəkəri təyin etmək üçün test-stripləri (1 qutuda 50 ədəd)	ayda 1 qutu	2 ayda 1 qutu	ayda 1 qutu
Davamlı qlükoza monitorinq cihazları (CGMs)	İstifadə olunan cihazın rəsmi yaş icazəsindən asılı olaraq 3 - 18 yaşlı uşaqlar üçün ayda 2 sensor olmaqla	Tələb olunmur	Tələb olunmur
İnsulin pompası	Aşağı doza insulinə ehtiyac olan 0 - 7 yaşlı uşaqlara həkim təyinatına əsasən	Tələb olunmur	Tələb olunmur
İnsulin pompasının məsrəfləri	Dövlət tərəfindən insulin pompası ilə təmin edilmiş şəxslər	Tələb olunmur	Tələb olunmur

1.4. “***Böyrək çatışmazlığında – ehtiyac olduqda.” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

“**** Şəkərli diabet tip 1 xəstələrdə insulinə olan gündəlik tələbat sabit olmayıb, xəstənin yaşı, bədən çəkisi, böyümə mərhələsi, hormonal dəyişikliklər və qlükoza göstəricilərindən birbaşa asılı olaraq dəyişir. Müasir tibbi yanaşmalara əsasən insulin terapiyası fərdiləşdirilməli (1-2 vahid/kq), yalnız həkim təyinatına və klinik göstərişlərinə əsasən tənzimlənməlidir.

***** Qlükometrlər istifadə müddətinə görə 3 ildən bir yenilənməlidir. Əgər yeni verilən cihazla bağlı istifadə zamanı nasazlıq yaranarsa, onu verən tibb müəssisəsi tərəfindən araşdırılaraq yenisi ilə əvəzlənməlidir.”.

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası” üzrə:

2.1. 1-ci hissəyə “müalicə-profilaktika müəssisəsinin” sözlərindən sonra “(ərazi poliklinikasının)” sözləri əlavə edilsin, “endokrinoloji dispanserində” sözləri “endokrin

sistem xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası üzrə ixtisaslaşmış dövlət tibb müəssisələrində (bundan sonra – endokrinoloji mərkəz)” sözləri ilə və “qeydiyyata” sözü “uçota” sözü ilə əvəz edilsin;

2.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2. Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təmin edilməsi məqsədilə onlara yaşadığı ərazi üzrə müalicə-profilaktika müəssisəsinin (ərazi poliklinikasının və ya rayon xəstəxanasının) ailə həkimi (sahə həkimi-terapevt və ya sahə həkimi-pediatr) tərəfindən endokrinoloqun təyin etdiyi müalicə sxeminə uyğun olaraq ayda 1 (bir) dəfə elektron sənəd formasında tərtib edilən resept (bundan sonra – resept) yazılır.”;

2.3. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Resept tərtib edilərkən şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin sağlamlıq vəziyyətində dəyişiklik və ya şikayət müəyyən edildikdə ailə həkimi (sahə həkimi-terapevt və ya sahə həkimi-pediatr) tərəfindən həmin şəxslər ixtisaslaşdırılmış tibbi xidmətin göstərilməsi üçün endokrinoloqa göndərilir.”;

2.4. 3-cü hissədə “nüsxəsində yazılır” sözləri “əsasında verilir” sözləri ilə əvəz edilsin;

2.5. 5-ci hissədə “müalicə-profilaktika müəssisəsinin (endokrinoloji dispanser və ya ərazi poliklinikası) müqavilə bağladığı aptek” sözləri “endokrinoloji mərkəzin aptek bölməsi, habelə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin müəyyən etdiyi siyahıda nəzərdə tutulan dövlət tibb müəssisələrində təşkil edilmiş aptek məntəqələri” sözləri ilə əvəz edilsin;

2.6. 6-cı hissədə “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üçün nəzərdə tutulmuş vəsait” sözləri “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibb sığorta fondunun vəsaiti” sözləri ilə əvəz edilsin.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 24 ” “ noyabr ” 2026-cı il

№ 391